https://doi.org/10.59849/3006-1342.2025.1.65
UOT 94(479.24)

*Namlet Əli oğlu Allahverdiyev*
*Elmi işçi*
*AMEA Gəncə Bölməsi*
*Gəncə ş., H.Əliyev pr., 419.*

# İNTİBAH DÖVRÜ GƏNCƏSİNİN ELMİ VƏ ƏDƏBİ MÜHİTİ

*Tarixən Böyük İpək yolu üzərində yerləşən qədim Gəncəyə dünyanın müxtəlif ölkələrindən səyyahların, görkəmli elm və mədəniyyət xadimlərinin səfər etməsi, burada milli-mənəvi dəyərlərimizin ümumbəşəri sivilizasiyalarla qaynayıb qarışmasına şərait yaratmışdır. 4000 illik tarixə malik olan Gəncə şəhəri İntibah dövründə müsəlman Şərqinin ən böyük mədəniyyət və elm mərkəzlərindən biri kimi sürətlə inkişaf etmişdir. Həmin dövrdə Gəncədə fərdi və ictimai kitabxanalar, mədrəsələr, rəsədxana və tibb mərkəzləri fəaliyyət göstərmişdir. Müsəlman mədəniyyəti qonşu xristian dövlətlərinə məhz buradan yayılmışdır. Buna görə Şərqin bir çox ölkələrindən alimlər, şairlər, memarlar, sənətkarlar Gəncə şəhərində məskunlaşmışdılar.*

*Açar sözlər:* İntibah, Gəncə, Nizami Gəncəvi, elm, ədəbi mühit, mədəniyyət

## *Giriş*

Yaxın və Orta Şərqin ən böyük və inkişaf etmiş şəhərlərindən biri olan Gəncə yüz minlərlə insanın yaşayış məskəni idi. XIII əsrin əvvəllərində fars dilində yazılmış "Əcaib-əd-Dünya" adlı əsərdə Gəncə haqqında qeyd olunur: "...bu, Arranda böyük şəhərdir və onun paytaxtıdır. Möhkəm qalası, istehkamları, hündür divarları və dərin xəndəyi var. Sıx əhalisi olan və inkişaf edən şəhərdir. Əhatəsindəki kəndlər gözəldir, yaşıllıqdır, axar suları boldur. Onun əhalisi bacarıqlı və çox ağıllıdırlar. Çoxlu dadlı meyvələri olan bağları və ağacları var. Məsələn, üzüm, nar, əncir, qovun, paxla və tut. Onun əmtəə malları atlas parça (diba), pambıq kəzz-kəşndə və ipək idi. Yaxşı şəhər olduğuna görə bura dünyanın hər yerindən silah gətirirdilər, din uğrunda mübarizdirlər... cavanların çoxu keçədən papaq qoyurlar." [6, s.15-16]

*Əsas hissə.* X-XI əsrlərdə hər tərəfli inkişaf etmiş Gəncə şəhərinin yaşıl və abad küçələri var idi. Şəhərin su təchizatında əsas yeri kəhrizlər tuturdu. Gəncə kəhrizləri haqqında ətraflı məlumatı Zəkəriyyə Qəzvini verərək şəhərdə su quyusundan istifadə olunduğunu bildirirdi. Kəhrizlərin suyu dulus boruları ilə axıdılırdı. Onların qalıqlarına bu gün də rast gəlinir.

Gəncə əhalisi islam mədəniyyətinin inkişafı prosesində yaxından iştirak edirdi. Şəhərin gəncləri "Ərəb Şərqinin mədəni mərkəzi olan Bağdad, Kufə, Bəsrə, Dəməşq, Qahirə və s. şəhərlərə təhsil almaq üçün çoxlu azərbaycanlı gedirdi." [1, s.135] "Hələ XI əsrdə Məlikşah Səlcuqinin vəziri Nizamülmülkün Bağdadda təsis etdiyi "Nizamiyyə" adlı akademiya tipli mədrəsədə təhsil almaq üçün Gəncədən xeyli cavan getmiş, mükəmməl təhsil və bilik aldıqdan sonra yenidən Gəncəyə qayıtmışdılar." [6, s.20]

Xaricdə elmə yiyələnib vətənə dönən gənclər oxuduqları ölkənin yaxşı iş sahələrini də öyrənir, geri dönəndə vətənlərində tətbiq edirdilər. Onların bəziləri öz şəhərlərində yüksək vəzifə tuturdular. Gəncədən olan Fələkəddin Əbül- Həsən Əli ibn Əbdullah əl Cənzi Gəncədə qazilik edirdi. Məşhur din xadimləri Ömər ibn Osman ibn Şuayb Gəncəvi, Əbül fəzl İsmayıl ibn Əli ibn İbrahim Gəncəvi, şair Tacəddin Əhməd Katib, tarixçi, hüquqşünas Mxitar Qoş, Kirakos Gəncədə anadan olub və burda fəaliyyət göstərmişdilər.

"Gəncə yaxınlığındakı Sakurabad kəndinin qazısı Ümdətəddin əbu Mənsur Vahuzən ibn Əbül Qasim Əbdullah ibn Əmir əl Cənzi əs Sakurabadi idi. O, həmçinin öz kəndinin xətibi və Fəqihi idi." [3, s.184]

XII əsrin görkəmli alimlərindən biri, hüquqşünas, Dəməşqdə məhkəmə qazısı olaraq işləmiş və Bağdadda təhsil almış Əbülfəzn İsmayıl ibn Əli ibn İbrahim də əslən Gəncədən idi [6, s.21].

XII əsr "Azərbaycan mədəniyyətinin intibah dövrü" adlandırılır. Bu dövrdə "Dar-əl-Kutub" (Kitab evi) kitabxanası ilə Şərqdə məşhurlaşmış Gəncə şəhərinin yetirmələri olan Əbülüla Gəncəvi, Qivami Mütərrizi, Məhsəti Gəncəvi, Nizami Gəncəvi, Kəfan Gəncəvi kimi şairlər dünya mədəniyyətinin zənginləşməsində öz töhfələrini vermişlər. XII əsrdə Şirvanşahlar sarayında yaşamış Nizaməddin Əbül Üla Gəncəvi (1096-1159) Gəncə şəhərində doğulub, təhsilini də bu şəhərdə almışdır. O, Şirvanşahlar sarayına 44 yaşında gəlsə də saray ədəbiyyatının bütün xüsusiyyətlərinə bələd idi. Zəmanəsinin gözəl lirik və fəlsəfi şairi kimi tanınan Əbül Üla sarayda məliküşşüara dərəcəsinə yüksəlmiş və bir neçə azərbaycanlı şairlərin ustadı olmuşdur. Fələki Şirvani, Xaqani Şirvani kimi şairlərin yetişməsində və saraya gətirilməsində Əbül Ülanın xidməti olmuşdur. Hətta o, qızını xüsusi hörmət etdiyi tələbəsi Əfzaləddin Xaqaniyə ərə vermişdir. O, Xaqaniyə məktub şəklində yazdığı şerlərinin birində deyirdi:

Gözümə işıq, həm oğlumuzsan,
Mən isə ustadın, həm də qaynatan.
Şagirdim olmağa göstərdin rəğbət,
Sənə qızım verdim, eylədim hörmət.
Sənin hünərinə bel bağlamışdım,
Sənin şairlikdə dilini açdım.
Səni xaqana mən özüm göstərdim,
Xaqani adını sənə mən verdim [8]

Şair kürəkəni Xaqanini oğul kimi sevməsinə baxmayaraq sonralar onların arasında narazılıqlar baş vermişdi. Xaqani Şirvani qaynatası Əbül Ülanı qeyri insani sözlərlə təhqir edirdi:

Gah Gəncənin köpəyindən dadü fəryad eylərəm,
Gah Avəcift eşşəyindən könül çəkir əlaman.
Birincisi ilan kimi zəhərlidir, zəhərli
İkincisi kəsib tökən iti dişli bir siçan [9, s.108]

"Gəncə köpəyi", "zəhərli ilan" deməklə şair qaynatası Əbül Ülanı, "Avəcift eşşəyi", "siçan" deməklə isə İranın Avə adlı yerindən köçüb gəlmiş Gəncə şeyxini nəzərdə tutur. Xaqani Əbül Ülanı "İsmaili təriqət" adlandırıb rüsvay etməkdən belə çəkinmirdi. O zamanlar İsmaili təriqətçilərini ölüm gözləyirdi. Xaqaninin bu böhtan və təhqirləri Əbül Ülanı üzürdü. Hər şeyə olduğu kimi baxan şairi saray şairləri sevmir, ona böhtanlar atırdılar. Onlar Əbül Ülanı dinsiz adlandırırdılar. Məhəmməd (s) peyğəmbərin meracına şübhə etdiyini yazırdılar. Çox güman ki, buna səbəb onun böyük sənətkar olması və onun özünü öyməsi idi:

Mənəm həməsrlərimdən qabaq gedən ustad,
Mənimlə Gəncəlilər fəxr edir, deyil bica. [2, s.68]

Gəncənin digər gözəl şairəsi Məhsəti Gəncəvi XII əsrin rübai ustası idi (1096-1160). Təzkirəçilər şairənin yoxsul bir ailədə anadan olduğunu və yaxşı bir musiqişünas olub, Gəncə xətibinin oğlu Əmir Əhmədlə şeirləşməsini və onunla ailə qurmasını yazırlar. Şairənin həyatı haqqında ətraflı məlumatın azlığı ucbatından tarixçilər şairənin həyat və fəaliyyət haqqında məlumatları onun əsərlərindən və şairə haqqında yazılmış "Əmir Əhməd və Məhsəti"

əsərindən bəhrələnirlər. Çox təəssüf ki, bu günə kimi Məhsətinin həyat yoldaşı Gəncə xətibinin oğlu Əmir Əhmədin adı Azərbaycan şairləri arasında yer almayıb. Son illər şairə haqqında hörmətli professor Xəlil Yusifli, Rafael Hüseynov dəyərli fikirlər söyləmişlər. Hətta Xəlil Yusifli şairənin bir sıra rübailərini ana dilimizə çevirmişdir. "Ümumiyyətlə Məhsəti Gəncəvi İntibah dövründə Azərbaycan ədəbiyyatının asimanında öz yeri olan, gözə tez çarpan parlaq ulduzlardan biridir." [11, s. 141]

Yüksək poetik istedad sahibəsi olan Məhsəti Səlcuq sultanı Səncərin (1118-1157) sarayında, həmçinin onun qardaşı oğlu Sultan Mahmudun dövründə bir şairə kimi məşhur idi. Onun əsərlərində sadə sənət adamları olan əxilərlə yaxınlığı haqqında eyhamlar var. "Məhsətinin təqdir etdiyi cavanmərdlər, sənət və peşə sahibləri "Məhsəti və Əmir Əhməd" dastanında həmişə "Xərabat" adlanan yerdə təsvir edilir. Çox ehtimal ki, bu "Xərabat" və Gəncənin "xaraba yeri" sözləri eyni mənşəli məkan adlarıdır." [6, s.20]

Sözsüz ki, Nizami Gəncəvi (1141-1209) XII əsrdə yaxın və Orta Şərqdə yaşayan şairlərin ən görkəmlisi idi. Hələ uşaqkən ata və anasını itirən Nizami babasının himayəsində böyümüş, mədrəsə təhsili almış, öz üzərində ciddi çalışmaqla, fəlsəfə, tarix, astronomiya, musiqi, rəssamlıq, tibb və başqa elmi sahələri öyrənmişdir. O, zəngin ədəbi yaradıcılığı ilə tək orta əsr Azərbaycan mədəniyyətinə deyil, bütün Şərq mədəniyyətinə güclü təsir etmişdir. Onun əsərlərindən təsirlənən bir çox şairlər onun əsərlərinə nəzirə yazsalar da onun səviyyəsinə çata bilməmişlər.

XIII əsrdə yaşamış Hind şairi Əmir Xosrov Dəhləvi Nizaminin "Xəmsə"sinə nəzirə kimi "Xəmsə" yaratmışdır. O, özünü Nizaminin şagirdi bilmiş, onun əsərlərini dünya ədəbiyyatında bərabəri olmayan qüdrətli sənət əsəri kimi dəyərləndirmişdir. Əmir Xosrov Dəhləvi əsərlərinin birinin dibaçəsində Nizamini və onun istedadını belə mədh edir:

Nizami qoymamış deyilməmiş söz,
Bir inci yoxdur ki, o açmasın göz.
Uşaqtək əbzədlə ilk addım atdım,
Ustadın möhrilə namə yaratdım.
Ki, ağıl sahibi söyləsin əhsən,
Böyük Nizaminin şagirdisən sən. [2, s.113]

Onun əsərlərindən ilham alan tək Əmir Xosrov Dəhləvi olmamışdı. Özbək şair Əlişir Nəvai, tacik şairi Əbdürrəhman Cami, azərbaycanlı şair Arif Ərdəbili, Məhəmməd Füzuli onun əsərlərinə nəzirə yazmışdır. Nizaminin "beş xəzinə" adlanan məsnəvilərindən birincisi "Məxzənül-əsrar"dır. ("Sirlər xəzinəsi") Bu əsəri şair 1164-cü ildə bitirib. Şahlara nəsihət və hikmətli sözlərlə zəngin olan əsər Ərzincan hakimi Fəxrəddin Bəhramşah Mənkuçəkin sifarişi ilə yazılıb. Bəhramşah bu məsnəvini mükafatlandıraraq Nizamiyə 5 min dinar pul və beş iti yerişli qatır cayizə[1] göndərmişdi [10, s.256]. "Sirlər xəzinəsi" əsərinə yüzlərlə İran, Hindistan şairləri nəzirələr və cavablar yazmışlar.

Nizami Gəncəvinin ikinci əsəri "Xosrov və Şirin" dastanıdır. Şair onu 1180-ci ildə Cahan Pəhləvanin adına nəzmə çəkib. "Azərbaycan ədəbiyyatı tarixində ilk mənzum roman olan bu əsər Sasani hökmdarlarından olan Xosrov Pərvizlə Bərdə hakiminin vəliəhdi gözəl Şirin arasındakı məhəbbət haqqındadır. [4, s.5]

Çox təəssüf ki, Məhəmmədəli Tərbiyət kimi bir alim "Xosrov Pərviz Sasani sülaləsinin 23-cü padşahı və Şirin isə onun hərəmxanasında olan xristian qadınlardandır" deyə qeyd

[1] Dövlət adamlarına həsr edilən əsərlər müqabilində verilən mükafat. τ Orta əsrlərdə geniş yayılmışdı. Bura hədiyyələr, bəxşiş olunan mülklər daxil idi. Dövlət adamları sənət adamlarının maddi təminatı üçün belə bir adət yaratmışdılar.

edərək yanlışlığa yol verib, Şirini xristian kimi təqdim edir. Əsərdə Şirinin hansı dinə qail olması haqqında heç bir məlumat yoxdur [10, s.257]. Şirinin Xosrovun hərəmxanasında olması da yanlış fikirdir. Nizami yazır:

Üzü nəsrin kimi, qoxusu nəsrin,
Dodağı şirindir, adı da Şirin.
Gözəl söz deyənlər ona can deyir,
O, Məhin Banunun canişinidir.
Ölkədə tanınmış nadir gözəllər,
Fərman gözləyirlər yanında yeksər [5, s.65]

Nizamidən sonra yüzlərlə İran və Hindistan şairləri bu dastanı nəzmə çəkmişlərsə də fəsahətdə, səlislikdə, rəvanlıq və gözəllikdə onların heç birisi Nizaminin əsərinə çatmamışdır [10, s.258].

Bu böyük əsər hazır olandan sonra, Nizami əsəri Məhəmməd Cahan Pəhləvan öldüyü üçün qardaşı Qızıl Arslana bağışlayır. Nizami hökmdara xoş qəbulu üçün duaçı olur. Əsərə görə şah Nizamiyə "Həmdünyan" adlı kənd bağışlayır:

Mənim "həmdü sənam" xoşuna getdi,
"Həmdünyan" kəndini mənə bəxş etdi.
"Biz bəxş eyləmişik bu kəndi ona,
Çatsın Nizaminin öz övladına,
Əvəzsiz verilmiş ona bu dövlət,
Qiyamətə kimi onundur əlbət." [4, s.371-372]

Bəzi tədqiqatçılar yazırlar ki, Həmdünyan kəndi bu günkü Goranboy bölgəsindəki Həmənli kəndidir. Bu fikrin doğruluğunu sübut etmək üçün onların əlində heç bir əsas yoxdur. Çox güman ki, Həmdünyan kəndi bu gün Gəncədən 4-5 km şimalda yerləşən Tatılı kəndidir.

1118-ci ildə Şirvan hakimi I Axsitan Nizamiyə "Leyli və Məcnun" rəvayətini nəzmə çəkməyi sifariş etdi. "Leyli və Məcnun" dastanı ərəb mühitində yaranmış bir hekayətdir. Tədqiqatçıların fikrincə bu məhəbbət dastanı VII-VIII əsrlərdə Hicazda baş vermiş bir hadisədir. Leyli bintu Səd adlı qıza Qeys ibn Məluh ibn Müzahim adlı bir gənc vurulur. Onların hər ikisi Bəni Amir qəbiləsindən idilər. Onlar hələ uşaqkən bir yerdə qoyun-quzu otarırlarmış. Ərəb şairi Quteybə oğlanın (Məcnunun) dilindən deyir:

Vuruldum mən Leylaya o, kiçik bir qız idi,
Onun tək gözəl qızlar içrə tapılmaz idi.
İkimiz də gənc idik, otarırdıq mal-davar,
Kaş nə biz böyüyərdik, nə də ki, o heyvanlar.

Məlum olduğuna görə bu dastanı da birinci nəzmə çəkən Nizami olmuşdur [10, s.259].

Onlarla Azərbaycan, İran, Türk və Hind şairləri Nizaminin bu əsərinə bənzər mədhiyyə yazmışlar. Onlardan ancaq Məhəmməd Füzuli yüksək səviyyəli bir əsər yarada bilmişdir. Əsər iki gəncin sevgisi üstə qurulsa da burda da Nizami zəmanəsinin hakimlərinə öyüd-nəsihət verir:

Dünyanı abad et sən ey hökmdar,
Adın bu dünyada qalsın yadigar [5, s.285]

Şair 1196-cı ildə Marağa hakimi Əlaəddin Körpə Arslana ithaf etdiyi "Həft peykər" (Yeddi gözəl) əsərini yazmağa başlayıb, 1197-ci ildə tamamlayıb. Əsərin qəhrəmanı V Varahranın oğlu İran şahı Bəhram Gurdur. O, şah olsa da ölkənin abadlığına, insanların güzəranına biganədir, ötəri sevgi ehtirası ilə yaşayıb, əyyaş həyatı sürür. Ölkəni zalım vəzir

idarə edir. Şah səhvini bir çobanın vaxtilə ona sadiq olub, sonra şəhvətə uyan köpəyin asılması hekayəsindən sonra anlayır. Nizaminin bu əsərinə İran, Türk şairləri onlarla nəzirələr yazmışlar.

Nizami Gəncəvinin beşinci əsəri "İsgəndərnamə"dir. Əsər iki hissədən -"Şərəfnamə" və "İqbalnamə"dən ibarətdir. Nizami bu əsəri 60 yaşında olanda, yəni 1201-ci ildə bitirib. "Şərəfnamə" 1195-ci ildə Nüsrətəddin Əbu Bəkr ibn Cahan Pəhləvanın (1191-1201) şərəfinə nəzmə çəkilib. Əsərdə cəng meydanına, habelə şənlik məclisinə uyğun ifadələr işlətməklə Nizami bədii ifadələrlə zəngin bir əsər yaradıb. Buna görə bu gəncəli şair bütün ədəbiyyatşünasların hüsni-rəğbətini cəlb etmiş, onun yaradıcılığından iqtibas edən ustaları istinasız olaraq Nizami adını böyük hörmətlə dilə gətirmiş və onu tərifləmişlə [10, s.24].

Nizami heç bir əsərində başqa millətləri pisləməmişdir. Ancaq bu əsərində rusların saldırqan, quldur hərəkətləri və qəsbkarlığı geniş işıqlandırılmışdır. Çox güman ki, bu rusların Bərdəyə tarixi hücumları ilə bağlıdır. Əsərin qəhrəmanı olan İsgəndər sərkərdə, hökmdar, alim və zalımlara qarşı döyüşən döyüşçüdür.

Nizami "İqbalnamə"də isə ideal insan cəmiyyəti təlimini axtarışlarını araşdırır. Professor Zümrüd Quluzadə qeyd edirdi: ""Sirlər xəzinəsi"ndən başlamış, "İsgəndərnamə"yədək Nizami hər bir poemasında zorakılığa, nəcib, zəhmətkeş xalqa zülm edilməsini, əyri yollarla var-dövlət yığmağı, tamahkarlığı, qəddarlığı, vicdan alverini, rüşvəti dəfələrlə kəskin tənqid etmiş, adil hakimlər silsiləsi yaratmışdır" [12, s.108]. Əsərin təsirindən ruhlanan şairlər ona nəzirə yazmış və tərcümə etmişlər. Şair Əhmədi 1394-cü ildə bu əsəri türk dilinə çevirib, Əmir Teymura bağışlamışdır.

İntibah dövrünün digər şairi, XII əsrdə yaşamış Qivami Mütərrizi Gəncədə anadan olub. Bəzi təzkirəçilər onu Nizami Gəncəvinin qardaşı, bəziləri isə əmisi oğlu olduğunu yazırlar. Onun saraylarda yaşamadığını əsərlərindən öyrənirik. Şeirlərinin birində çörəkçilik (xəbbaslıq) etdiyi anlaşılır:

Şairlikdə yoxdur mislimi görən,
Çörəkçilikdə də hələ təkəm mən [2, s.70]

Bütün orta əsr şairləri kimi Qivami də zəmanədən şikayətlənib dövrünü tənqid edirdi. Bu şikayət və tənqidlə bərabər şair əsərlərində insanları pis xislətlərdən uzaq olmağa çağırır. Qivami Mütərrizi nəsihət verici şerlərlə bərabər gözəl qəzəl ustası da olmuşdur. Əsərlərində hüzn və qəmginlik, qocalıqdan şikayətlə bərabər gənckən onun qədrini bilməyi və ondan səmərəli istifadə etməyi məsləhət bilir. Bütün bunlarla bərabər Qivami Mütərrizinin əsərlərində mütərəqqi cəhətlər çoxdur.

Azərbaycan atabəyləri Məhəmməd Cahan Pəhləvan (1175-1186), Müzəffərəddin Osman Qızıl Arslan (1186-1191) və Nüsrətəddin əbu Bəkr (1191-1211) dövründə yaşamış şairlərdən biri də gəncəli Əbu Bəkr ibn Xosrov əl Ustad olmuşdur. Nizami Gəncəvinin müasiri olan Əbu Bəkr yuxarıda adı çəkilən atabəylərin sarayında yaşamış və Məhəmməd Cahan Pəhləvanın oğlanlarının tərbiyəçisi olmuşdur. Ona görə də ona "əl Ustad" ləqəbi verilmişdir. Sağlığında otuz ildən artıq Atabəylər sarayında yaşamış və altı əsər yazmışdır. Əsərlərinin çoxunu atabəy Məhəmməd Cahan Pəhləvana ithaf etmişdir. Əbu Bəkr ibn Xosrovun altı əsərindən ancaq biri - "Munisnamə" günümüzə kimi gəlib çıxmışdır. Bu əsər on yeddi başlıqdan ibarət olub, nəsrlə yazılmışdır.

XII əsrin sonu-XIII əsrin əvvəllərində yaşadığı güman edilən şairlərdən biri də Rəziyyə Gəncəvidir. Onun haqqında məlumat çox azdır. Şairənin adı və rübailəri yaxın zamanlarda elmə məlum olmuşdur. Onun rübailərini dilimizə tərcümə edən və kitabın tərtibçisi professor Xəlil Yusiflidir.

XIII əsrin ortalarında incə zövqlü bir Azərbaycan şairi Cəmaləddin Xəlil Şirvani Şirvanşah Əlaəddinin adına, bəlkə də onun xahişi ilə original bir məcmuə tərtib edir. O, ancaq rübailər toplusu olan bir almanax yaradır, adını isə “Həzrətül-məcalis” (məclislərin sevimlisi) qoyur. Əksəriyyəti azərbaycanlı olan 380 nəfər böyük və kiçik şairin əsərləri qeyd olunmuş bu cüng[2] XIII əsrə qədərki Azərbaycan ədəbiyyatının ən qiymətli mənbələrindən biridir [7, s.98].

Zəmanəsinin tanınmış şairlərindən biri də Kəfai Gəncəvi olmuşdur. Onun “Təbəristan şahlarının məddahı” olduğu bildirilir [10, s.184]. Şairin həyatı və yaradıcılığı haqqında məlumat toplamaq mümkün olmamışdır.

Nizaminin müasiri və yaşıdı Gəncəli Mxitar Qoş (1130-1213) milliyyətcə alban olub, tarixçi və hüquqşünas bir şəxs idi. Onun “Alban salnaməsi” adlı başa çatdıra bilmədiyi əsəri var.

Kirakos Gəncəli də milliyyətcə Alban olub, o, “Ermənistanın tarixi” əsəri ilə tanınır. K.Gəncəli monqol istilası ərəfəsində və həmin vaxt baş verən hadisələri izah edən “Tarix” adlı əsərin müəllifidir [3, s.227].

Kirakos Gəncəlinin məktəb dostu olan Vardan Gəncəli isə “Ümumi tarix” adlı əsər yazıb. Əsər monqol istilasına qədər və istiladan sonrakı dövrdə Zaqafqaziyada baş verən hadisələrin təsvirini verir.

Digər bir görkəmli şəxs Əbdülxaliq ibn Əbül –Məali ibn Məhəmməd əl Arrani Mosulda və Xilatda qanunşünaslıqdan (hüquq fənnindən) dərs deyib. Hökmdarlar yanında hörməti var idi. Dəməşqdə 1236-cı il 20 iyunda vəfat edib [3, s.231].

Ədəbiyyatçı alim Əbu Həfs Ömər ibn Osman ibn Şüəyb əl Cənzi Bağdadda “ən Nizamiyyə” mədrəsəsində Əbül Müzəffər əl Əbivərdiyə mühazirələr oxumuşdur. Həmədanda və dövlətin başlıca şəhərlərində müəllimlik etmişdir. 1160 –ci ildə Mərvdə vəfat etmişdir.

Əbülfəzl İsmayıl ibn Əli ibn İbrahim əl Gəncəvi isə Dəməşqdə məhkəmə hakimi olmuşdur. Bağdadda Əbül Bərəkat Hitəbullah əl Buxari, Əbu Nəsr Əhməd ət Tusi və başqalarından dərs almışdır. 1192-ci ildə vəfat etmişdir.

“Şair Tacəddin Əhməd ibn Katıb, filosof və astronom İvan Sarkavaq və başqaları Gəncə şəhərinin yetişdirmələri idilər.

*Nəticə*

XII əsrin ortalarında Gəncədə məktəblər, mədrəsələr, şəxsi və ictimai kitabxanaların fəaliyyət göstərməsi, “Hikmət evləri” və “Şəfa ocaqları”-nın yaradılması şəhərin mədəni cəhətdən zənginliyindən xəbər verir. Əslində, təkcə mədrəsə təhsili almış Şeyx Nizaminin həmin dövrdə məlum olan bütün elm sahələrinə dərindən yiyələnməsi belə göstərir ki, Gəncə İntibah dövrünün ən ümdə elm və mədəniyyət ocaqlarından idi.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Bakı, 1993.
2. “Azərbaycan ədəbiyyatı tarixi.” Bakı,1960.
3. Bünyadov Z., “Azərbaycan atabəyləri dövləti.” Bakı,1985.
4. Gəncəvi N. “Xosrov və Şirin”. Bakı, 1982.
5. Gəncəvi N. “Leyli və Məcnun”. Bakı, 1982.
6. “Gəncə” tarixi oçerk. Bakı, 1994.
7. Gəncəvi R. “Şeirlər”. Gəncə, 2009.
8. İbrahimov N. Min Beş Yüz Ilin Oğuz Şeiri Antologiyası**.** Cild I. Bakı: "Azərbaycan". 1999. 942 s.

[2] Cünk – XX əsrin əvvəllərinə qədər ədəbiyyat həvəskarları tərəfindən tərtib edilən poeziya antologiyaları - əlyazma kitabları.

9. Şirvani X. “Seçilmiş əsərləri” Bakı, 1956.
10. Tərbiyət M. “Danişməkdani Azərbaycan” Bakı, 1987.
11. Yusifli X. “Məhsəti Gəncəvi” Bakı, 1984.
12. Кулизаде З., Из истории Азердайджанской философии VII-XVI вв. Азербайджанское Гос. Изд-во, 1992, - 235 с.

УДК 94(479.24)

*Намлет Али Аллахвердиев*
*Гянджинское Отделение НАНА*

НАУЧНАЯ И ЛИТЕРАТУРНАЯ СРЕДА ГЯНДЖИ В ЭПОХУ ВОЗРОЖДЕНИЯ
*РЕЗЮМЕ*

*Ключевые слова:* Возрождение, Гянджа, Низами Гянджеви, наука, литературная среда, культура

Исторически сложилось так, что визиты путешественников, выдающихся деятелей науки и культуры из разных стран мира в древнюю Гянджу, расположенную на Великом Шелковом пути, создали условия для слияния и взаимопроникновения наших национальных и духовных ценностей с общечеловеческими цивилизациями. Город Гянджа, имеющий 4000-летнюю историю, стремительно развивался в эпоху Возрождения как один из крупнейших культурных и научных центров мусульманского Востока. В этот период в Гяндже действовали частные и публичные библиотеки, медресе, обсерватории, медицинские центры. Именно отсюда мусульманская культура распространилась на соседние христианские государства. Поэтому в городе Гянджа обосновались ученые, поэты, архитекторы и художники из многих стран Востока.

UDC 94 (479.24)

*Namlet Ali Allahverdiyev*
*Ganja Branch of ANAS*

SCIENTIFIC AND LITERARY ENVIRONMENT OF GANJA IN THE RENAISSANCE PERIOD
*SUMMARY*

*Key words*: Renaissance, Ganja, Nizami Ganjavi, science, literary environment, culture

Historically, the visit of travelers and prominent scientists and cultural figures from different countries of the world to ancient Ganja, located on the Great Silk Road, created conditions for our national and spiritual values to blend and mingle with universal civilizations. Ganja city, which has a 4000-year history, developed rapidly as one of the largest cultural and scientific centers of the Muslim East during the Renaissance. During that period, private and public libraries, madrasas, observatories and medical centers operated in Ganja. Muslim culture spread to neighboring Christian states from here. Therefore, scientists, poets, architects and artists from many countries of the East settled in Ganja.

**_Daxil oldu: 05.02.2025-ci il_**